**“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1**
**“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1**
**УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1**

# TARİX

**UOT 94(479.24)**

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**
AMEA Naxçıvan Bölməsi
hacifexreddin@yahoo.com.tr

## QARABAĞLAR TÜRBƏSİNİ İNŞA ETDİRƏN QADIN KİM OLUB

*Kəngərli rayonunun Qarabağlar kəndindəki türbəni inşa etdirən qadının adı ətrafında müxtəlif fikirlər vardır. Bu qadının kompleksə daxil olan qoşa minarəli baştağın kitabəsində qeyd olunan adını tədqiqatçılar Quzey xatun, Kevzi xatun, Kuzi xatun, Kudi xatun, Qudi xatun, Qoday xatun, Koday xatun kimi oxumuşlar. Məqalədə kitabənin mətni və bu adlar təhlil olunur. Nəticə olaraq qeyd edilir ki, Qarabağlar türbəsi Hülakü xanın arvadı Kudi xatının əmri ilə inşa etdirilmişdir.*

**Açar sözlər:** *Naxçıvan, Qarabağlar, türbə, minarə, Qudi xatın.*

Naxçıvan ərazisində indiyədək orta əsrlər zamanı yaradılmış müxtəlif təyinatlı çoxlu memarlıq abidəsi gəlib çatmışdır. Belə memarlıq abidələrindən biri də Şərq memarlığının ən möhtəşəm nümunələrindən, Naxçıvan memarlıq məktəbinin incilərindən olan Qarabağlar Türbə Kompleksidir. Kəngərli rayonunun Qarabağlar kəndində inşa edilən və yerləşdiyi yaşayış məskəninin adı ilə şərti olaraq Qarabağlar Türbə Kompleksi adlandırılan bu abidə XIX yüzilliyin 30-cu illərindən tədqiqatçıların diqqətini cəlb etmişdir. Həmin vaxtdan başlanan tədqiqatlar XX yüzillikdə də davam etdirilmiş, abidə müxtəlif tədqiqatçılar tərəfindən memarlıq və epiqrafik baxımdan dəfələrlə tədqiq olunmuşdur. Ancaq abidəni tədqiq edən memarlar onun memarlıq quruluşu haqqında yekdil fikirdə olsalar da, kompleksə daxil olan qoşa minarəli baştağın və türbənin üzərində qalan kitabələr, onların məzmunu haqqında müxtəlif fikirlər söylənmişdir. Başqa sözlə desək çox hissəsi dağılması səbəbindən bu kitabələri hərə bir cür oxumuş, nəticədə türbə kompleksinin təyinatı, sifarişçisi, kimin şərəfinə inşa edilməsi və s. haqqında bir-birinə əks olan çoxlu fikirlər yaranmışdır. Bu da öz növbəsində tədqiqatçılar arasında, xüsusilə epiqrafika ilə məşğul olmayan alimlər arasında fikir ayrılığına gətirib çıxarmış, yanlış nəticələrin yaranmasına səbəb olmuşdur. Bu özünü ən çox kompleksə daxil olan və giriş qapısı rolunu oynayan qoşa minarəli baştağın üzərində yarımdağılmış vəziyyətdə qalan və kompleksə daxil olan türbənin inşa olunmasını sifariş edən şəxsin – qadının adı ilə bağlı olan kitabədə göstərir.

Məlumdur ki, Qarabağlar Türbə Kompleksinə daxil olan qoşa minarəli baştağın üzərində zəmanəmizədək çox hissəsi dağılmış kitabə qalmışdır. Müx
baştağın üzərində zəmanəmizədək çox hissəsi dağılmış kitabə qalmışdır. Müxtəlif vaxtlarda tədqiqatçılar tərəfindən öyrənilmiş həmin kitabəni hər tədqiqatçı

**Məqalə tarixçəsi:**
Göndərilib: 19.02.2019, qəbul edilib: 26.02.2019

bir cür oxumuşdur. Kitabəni epiqrafik baxımdan ilk dəfə İ.Əzimbəyov (Məddah) tədqiq etmişdir. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin göndərişi ilə 1926-cı ildə Naxçıvan Muxtar Respublikasında ezamiyyətdə olan, səfər çərçivəsində Qarabağlar kəndinə də gedən İsa Əzimbəyov haqqında bəhs olunan kitabəni də tədqiq etmişdir. Alim kitabəni belə oxumuşdur: "Bu binanın tikilməsini Quzey xatun əmr etdi" (9). Kitabənin ilk tədqiqatçılarından, Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradıcılarından biri və elmi katibi olan M.Mirheydərzadə cəmiyyətin, 13 may 1928-ci ildə keçirilən heyət iclasındakı məruzəsində qeyd edir ki, Qarabağlar kəndində asar-ətiqə və tarixi binalardan ön dördüncü əsr miladidən qalmış minarələrdir. Bunların biri böyük, ikisi kiçikdir. Böyük minarə 12 guşəli olub göy kaşı rəng və Quran ayələri ilə yazılıb bəzədilmişdir. Kiçik minarələrin ortalığındakı tağda "Rəbbu hazihil-imarəti türkman Kevzi xatun" cümləsi oxunur (2, s. 185-186 ).

M.Mirheydərzadədən 2 il sonra adı çəkilən Cəmiyyətin üzvü M.Rəsizadə "Azərbaycanı öyrənmə yolu" adlı məcmuənin 1930-cu ildə nəşr olunan 4-5-ci sayında "Şərur dairəsində səyahət haqqında qeydlər" adlı məqalə nəşr etdirmişdir (5, s. 81-82). Məzmunu M.Mirheydərzadənin 1928-ci ildə etdiyi məruzənin mətni ilə çox oxşar olan məqalədə M.Rəsizadə yazır ki, Qarabağlar kəndində əskidən qalmış üç minarə vardır. Bunlardan birisi böyük, 12 guşəli olub, qayət sənətli, üzərində kaşı ilə Quran ayələri yazılmışdır. Digər iki minarənin aralığı tağ ilə bərkidilmiş və həmin tağda çəla xətt ilə yazılmışdır: "Rəbbu hazəl imarətu türkman Kevzi xatun" (5, s. 82).

Bu kitabə haqqında 1934-cü ildə ərazidə olan, Naxçıvanın tarixinə və etnoqrafiyasına aid dəyərli əsər yazan görkəmli rus şərqşünas alimi K.Smirnov da qısa məlumat vermişdir. Alim bu haqda yazır ki, Qarabağlar kəndində memarlıq baxımından Naxçıvandakı Atabəylər məqbərəsinə oxşar üç qədim qüllə vardır. İki minarənin arasındakı kitabədən aydın olur ki, bu binanın sahibi Türkman Kuzi xatun olmuşdur (14, s. 114).

Bu tədqiqatçılardan bir neçə il sonra tarix üzrə fəlsəfə doktoru Ə.Ələsgərzadə 1947-ci ildə nəşr etdirdiyi məqaləsində həmin kitabəni "Bu binanın tikilməsini... Cahan Qudi xatın əmr etdi" kimi oxumuşdur (10, s. 390). Ə.Ələsgərzadədən təxminən 50 il sonra kitabəni tədqiq edən AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru M.Nemət 2001-ci ildə elmi dövriyyəyə daxil etdiyi monoqrafiyasında verdiyi məlumatdan aydın olur ki, kitabənin mətni Ə.Ələsgərzadədə olduğu kimi "bu binanın tikilməsini ... Cahan Qudi xatun əmr etdi" cümləsindən ibarətdir (11, s. 60).

Qeyd etmək lazımdır ki, bəzi memarlıq ədəbiyyatında da bu kitabədə özünə yer alan qadının adı ilə əlaqədar məlumat verilmişdir. Məsələn, görkəmli memar, akademik Ə.Salamzadə 1976-cı ildə nəşr etdirdiyi "Əcəmi Əbubəkr oglu və Naxçıvan memarlıq abidələri" kitabında ehtimal şəklində kitabədə adı qeyd olunan qadının Elxani Abaqa xanın arvadı Qoday xatun olmasını, türbənin isə dini binalar kompleksinin daxilində onun şərəfinə tikilməsi fikrini irəli sürmüşdür (6, s. 42). Bu fikir akademikin sənətşünaslıq doktoru K.Məmmədzadə ilə müştərək yazdıqları "Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri" adlı kitabında eynilə təkrar olunmuşdur (7, s. 140).

AMEA-nın müxbir üzvü, görkəmli memar C.Qiyasi kitabənin mətninin "... bu tikilinin tikilməsini ... Cahan Qudi xatun əmr etdi" (3, s. 111), türk alimi Turqay Yazar isə kitabədə adı çəkilən qadının "Cihan Koday Hatun" olması fikrindədir (8, s. 44).

Göründüyü kimi kitabədə xatırlanan qadının adını kitabənin ilk tədqiqatçılarından İ.Əzimbəyov Quzey xatun, M.Mirheydərzadə və M.Rəsizadə Kevzi (Kuzi) xatun, K.Smirnov Kuzi xatun, Ə.Ələsgərzadə və M.Nemət Qudi xatun, Ə.Salamzadə, K.Məmmədzadə və Turqay Yazar Qoday (Koday) xatun kimi oxumuşdur. Diqqət yetirilsə bu alimlərdən sırf epiqrafika ilə məşğul olanlar (Ə.Ələsgərzadə, M.Nemət) qadının adını Qudi xatun, M.Mirheydərzadə, M.Rəsizadə, K.Smirnov Kevzi və ya Kuzi xatun, memarlardan Ə.Salamzadə, K.Məmmədzadə və T.Yazar Qoday (Koday) xatun kimi oxumuşlar.

Biz də əksər hissəsi dağılsa da qalan hissəsi çox aydın şəkildə oxunan kitabəni bir neçə dəfə yerində tədqiq edən bir tədqiqatçı kimi Ə.Ələsgərzadə, M.Nemətin oxunuşu ilə razıyıq və orada xatırlanan qadının adının Qudi xatın olması fikrindəyik.

Düşünürük ki, burada bir məsələyə aydınlıq gətirməkdə fayda vardır. Bu da Kudi xatının kim və kimin arvadı olması məsələsidir. Bəzi tədqiqatçılar bu qadının Elxani hökmdarlarından Abaqa xanın arvadı Koday və ya Qoday xatın olması fikrindədir. Ancaq orta əsr tarixçisi və dövlət xadimi Fəzlullah Rəşidəddinin (XIII-XIV əsrlər) "Cami ət-Təvarix" əsərində Abaqa xanın arvadları haqqında verdiyi məlumatlardan görünür ki, onun Koday və ya Qoday xatın adlı arvadı olmamışdır (13, s. 65-66). Ona görə də bu fikirlə razılaşmaq olmaz. Bizcə, qaynaqlarda Kutuy, bəzən də Quti xatın adı ilə xatırlanan qadın Abaqa xanın deyil, Elxanilər dövlətinin banisi Hülakü xanın arvadı, Abaqa xanın isə analığı olmuşdur. Bu fikri bizə qədər gəlib çatmış qaynaqlar da təsdiq edir. Fəzlullah Rəşidəddinin yazdığına görə Hülakülər (Elxanilər) dövlətinin banisi Hülakü xanın arvadlarından birinin adı Kutuy xatın olmuşdur (13, s. 16). Rəşidəddinin adı çəkilən əsərinin ikinci cildində bəzən "Quti xatın" kimi xatırladığı (12, s. 71, 202), sarayda böyük nüfuza malik olan Kutuy xatın ağlı və bacarığı sayəsində oğlu Sultan Əhmədin iki il iki ay on üç gün davam edən hakimiyyəti dövründə (1282-1284-cü illər) dövlətin idarə olunmasında iştirak etmişdir (1, s. 18; 13, s. 104). Fikrimizcə, kitabədə adı çəkilən Qudi xatın mənbələrdə Kuti və ya Kutuy xatın şəklində xatırlanan qadınla eyni adamdır.

Kitabədə tarix qalmamışdır. Ancaq minarələri tədqiq edən memarlar onların XII əsrdə inşa edilməsi fikrindədirlər (7, s. 40). Akademik Ə.Salamzadə və sənətşünaslıq doktoru K.Məmmədzadənin fikrincə, bu minarələri birləşdirən baştağ isə sonralar, XIV əsrdə tikilmişdir (7, s. 140). Bu fikri baştağın üzərindəki kitabədə Hülakü xanın arvadı Qudi xatının adının qeyd edilməsi də təsdiq edir. Qudi xatının adının üzərində qeyd edilməsinə əsasən aydın olur ki, qoşa minarələri birləşdirən baştağ həmin qadının yaşının qocalıq dövrünə təsadüf edən XIV əsrin 30-cu illərində inşa edilmişdir.

Bir məsələnin üstündə xüsusi dayanmaq istərdik. Müasir dövrdə mövcud ədəbiyyat materiallarından istifadə edərək Qarabağlar Türbə Kompleksi haqqında məqalə hazırlayan bəzi müəlliflər Qarabağlar türbəsinin Qudi xatının şə-

rəfinə inşa edildiyini yazırlar. Halbuki, kitabədən çox aydın şəkildə məlum olur ki, türbə Qudi xatının şərəfinə yox, onun əmri ilə tikilmişdir. Bu iki fikrin arasında isə çox fərq vardır. Abidə o vaxt kiminsə şərəfinə tikilirdi ki, o həmin adamın qəbri üzərində inşa olunurdu. Bunun ən gözəl nümunəsini biz Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində 1162-ci ildə inşa etdiyi Yusif Küseyr oğlu və 1186-cı ildə ucaltdığı Möminə xatın türbəsinin timsalında görürük. Hər iki abidənin kitabəsindən aydın olur ki, bu türbələr Yusif Küseyr oğlunun və Möminə xatının xatirəsinə – şərəfinə inşa etdirilmişdir. Ona görə də birinci türbə elmi ədəbiyyatda Yusif Küseyr oğlu türbəsi, ikinci türbə isə Möminə xatın türbəsi adlandırılır. Bəzən əhali arasında Möminə xatın türbəsinə “Atabəylər türbəsi” də deyilir. Bu isə əhalinin fikrincə, bu türbənin sərdabəsində Möminə xatından sonra əri Şəmsəddin Eldənizin və oğlu, Azərbaycan Atabəyləri dövlətinin II hökmdarı Atabəy Məhəmməd Cahan Pəhləvanın da dəfn olunması, həmçinin abidənin Atabəy hökmdarlarının əmri əsasında inşa etdirilməsi ilə əlaqədardır.

Məsələyə bu baxımdan yanaşdıqda aydın olur ki, Qarabağlar türbəsinin Hülakülər dövlətinin banisi Hülakü xanın arvadı Qudi xatunun şərəfinə inşa edilməsi fikri yanlışdır. Çünki Qudi xatın bu türbənin sərdabəsində dəfn olunmamışdır, onun kiminsə şərəfinə tikilməsini əmr etmişdir. Təəssüf ki, kitabənin çox hissəsi dağılaraq məhv olduğu üçün bu məsələni, yəni türbənin kimin şərəfinə inşa etdirilməsini müəyyən etmək mümkün olmamışdır. Həmçinin burada bir fikri də vurğulamaq lazımdır ki, bəzən şifahi danışıqlarda, hətta nəşr olunan kitab və məqalələrdə Qarabağlar türbəsi “Qudi xatın türbəsi” adlandırılır. Yuxarıda verdiyimiz izahdan göründüyü kimi, türbənin belə adlandırılması onun tikilməsini əmr edən qadının adı ilə əlaqədar olduğu üçün müəyyən qədər başa düşüləndir. Məhz bunu əsas götürərək AMEA-nın müxbir üzvü C.Qiyasi yazır ki, bu kitabəyə görə kompleksin baş tikintisini Qudi xatın türbəsi adlandırırlar (2, s. 111).

Bir neçə kəlmə də 20-30-cu illərdə kitabəni tədqiq etmiş bəzi tədqiqatçıların kitabədə oxuduğu sözlər haqqında bəhs etmək istərdik. Kitabənin ilk tədqiqatçısı İsa Əzimbəyov kitabənin ilk sözünü ərəbcə “əmr etdi” şəklində oxuduğu halda, ondan müvafiq olaraq 2-4 il sonra kitabəni tədqiq edən M.Mirheydərzadə və M.Rəsizadə həmin sözü “Rəbb” (Allah) kimi oxumuşdur. Kitabədə çox aydın şəkildə oxunan “Cahan” sözünü isə hər iki tədqiqatçı “türkman” kimi oxumuşlar. Bu müəlliflər kitabədə kiçik fərqlə “Rəbbu hazihıl imarəti türkman Kevzi xatın” cümləsinin yazıldığını qeyd edərək onun transkripsiyasını versələr də tərcüməsini verməmişlər. Ona görə də M.Mirheydərzadənin 1928-ci il tarixli məruzəsini latın əlifbası ilə nəşrə hazırlayan bir tədqiqatçı kitabədə yazılan “imarət” sözünü ərəb əlifbasının “ayn” hərfi ilə yox “əlif”lə yazılan “Əmarə” (nişanə) kimi qəbul etmiş və kitabənin mətnini “Allahın bu nişanəsi türkman Quzi  xatunundur” şəklində tərcümə etmişdir (4). Bu fikir isə sonralar bir sıra nəşrlərə, hətta ümumiləşdirici əsərlərə də daxil edilmiş və yanlışlıqlara səbəb olmuşdur.

Bütün bu deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, Qarabağlar Türbə Kompleksinə daxil olan qoşa minarəli baştağın üzərində “Bu

binanın tikilməsini... Cahan Qudi xatın əmr etdi" sözləri yazılmışdır. Kitabədən aydın olur ki, Kompleksin özəyini təşkil edən Azərbaycan memarlığının ən gözəl nümunələrindən olan türbə Elxani hökmdarı Hülakü xanın arvadı Qudi xatının şərəfinə deyil, onun əmri ilə inşa edilmişdir. Ona görə də fikrimizcə, onun "Qudi xatın türbəsi" adlandırması ilə qismən razılaşmaq mümkün olsa da, kitabənin əsas hissəsinin dağılması səbəbindən abidənin kimin şərəfinə inşa edildiyini aydınlaşdırmaq mümkün olmadığı üçün yerləşdiyi yaşayış məskəninin adı ilə Qarabağlar türbəsi adlandırılması daha məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Sovet Ensiklopediyası. IV cild. Bakı, 1980.
2. Xəlilov F. Naxçıvanı öyrənən elmi cəmiyyət. Bakı: Nurlan, 2005, 196 s.
3. Qiyasi C. Silindrik gövdəli qülləvari türbələrin təkamül prosesində memar Əhməd Naxçıvaninin rolu. Nahçıvan ve Doğu Anadolu abideleri uluslararası sempozyumu (Dünü, bugünü ve yarını). 11-12 mayıs, 2015-Nahçıvan. Baskı tarihi 2016, s. 104-114.
4. Mirheydərzadə M. Noraşen dairəsinə səyahət. "Sovet Naxçıvanı" qəzeti, 16.02.1989-cu il.
5. Rəsizadə M. Şərur dairəsində səyahət haqqında qeydlər. "Azərbaycanı öyrənmə yolu". № 4-5, Bakı, 1930, s. 81-82.
6. Salamzadə Ə.V. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. Bakı: İşıq, 1976, 84 s.
7. Salamzadə Ə.V., Məmmmədzadə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 268 s.
8. Yazar.T. Nahcivanda türk mimarisi. Ankara: Türk Tarih Kurumu, 577 s.
9. Азимбеков И. Мусульманские надписи Тифлиса, Эривани и Нах.ССР. Известия «Азкомстарис»а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 295-311.
10. Алескерзаде А.А. Надписи старинных архитектурных памятников Нахичеванского края. Изв. АН Азерб. ССР, 1949, № 5, с. 151-168.
11. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том III. Баку: XXI –Yeni nəşrlər evi, 2001, 216 с.
12. Рашидаддин Ф. Джами ат-таварих (сборник летописей). Том 2. Москва-Ленинград: Изд. – во Академии Наук СССР, 1960, 248 с.
13. Рашидаддин Ф. Джами ат-таварих (сборник летописей). Том 3. Баку: Изд. – во Академии Наук Азерб ССР, 1957, 361 с.
14. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 159 с.



## РЕЗЮМЕ

**ГАДЖИФАХРЕДДИН САФАРЛИ**

**КТО БЫЛА ЖЕНЩИНА, КОТОРАЯ ВОЗВЕЛА КАРАБАГЛАРСКИЙ МАВЗОЛЕЙ**

Вокруг имени женщин, которая возвела мавзолей в деревне Карабаглар Кенгерлинского района существуют разные мнения. Название этой женщины упомянуто в надписи на арке с двумя минаретами, который исследователи прочитали как Гузей хатун, Кевзи хатун, Кузи хатун,

Гуди хатун, Годай хатун, Кодай хатун. В статье анализируются все эти названия и текст надписи. В результате было отмечено, что Карбаг-ларская гробница построена по приказу Куди хатына- жены Хулаку хана.

**Ключевые слова:** Нахчыван, Карабаглар, мавзолей, минарет, Куди хатын.

**SUMMARY**

**HAJIFAKHRADDIN SAFARLI**

**WHO WAS THE WOMAN ORDERED THE CONSTRUCTION OF GARABAGHLAR TOMB**

There are different thoughts about the woman who was ordered the construction of tomb exist in Garabaghlar village of Kangarli region. This woman`s name was noted on the inscription of the twin-minarets headspan and investigators have read her name as Guzey khatin, Kevzi khatin, Kuzi khatin, Kudi khatin, Gudi khatin, Goday khatin, Koday khatin. In the article the text of the inscription and these names are analysed. Result it is noted that the Garabaghlar tomb was constructed according to the order of Kudi khatin Hulaku khan`s wife.

**Key words:** Nakhchivan, Garabaghlar, tomb, minaret, Kudi khatin.

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. **Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5**

